Xalq qəzeti .- 2022.- 11 mart.

# Qarabağın yerlə bir edilməsi Ermənistanın barbar mahiyyətinin göstəricisidir

***Avropa Parlamenti Azərbaycana qarşı qərəzli yanaşmasını bu gün də davam etdirir. Parlamentin martın 10-da plenar iclas keçirərək, Qarabağda erməni mədəni irsinin "məhv edilməsi" ilə bağlı müzakirələr aparması bunun daha bir təsdiqidir.***



Xatırladaq ki, bu qurum əvvəllər də Azərbaycana yönələn qarayaxmaları, iftiraları ilə fərqlənib. Məsələn, Vətən müharibəsindən az sonra Avropa Parlamenti Azərbaycan və Türkiyəni ittiham edən qətnamə qəbul edib. Orada guya Azərbaycan İkinci Qarabağ savaşı getdiyi günlərdə Suriyadan olan muzdluların yardımından yararlandığı bildirilib. Bununla bərabər, müharibədən sonra ordumuz tərəfindən zərərsizləşdirilən erməni diversantlarının qeyd-şərtsiz azad edilməsi tələbi irəli sürülüb.

Bu ilin fevral ayında isə ermənipərəst Avropa Parlamentinin 2021-ci il üçün xarici siyasət və təhlükəsizlik üzrə hesabatında ATƏT-in Minsk Qrupu "Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq səviyyədə tanınan yeganə format" kimi təqdim olunur, həmin qrupun tez bir zamanda vasitəçilik rolunun bərpasının zəruriliyi ilə bağlı çağırış edilir, əvvəllər olduğu kimi, yenə də zərərsizləşdirilən "hərbi əsirlərin qaytarılması" vacibliyi vurğulanırdı.

İndi isə Avropa Parlamentinin Azərbaycanın Qarabağda erməni mədəni irsinin "məhv edilməsi" ilə bağlı müzakirələr aparması heyrət doğurur. Yalan, böhtan və riyaya sadiqliyin bu səviyyədə nümayişi adamı dəhşətə gətirir. İşğalçıya "göz yaşı" axıtması, qəsbkara qahmar çıxması, onu dəstəkləməsi, onun barbar, vandal əməllərini "görməməsi", ən nəhayət, Ermənistanın 30 il ərzində Azərbaycana qarşı faşizm siyasəti yürütməsi bu qurumun fəaliyyət prinsipləri barədə aydın təsəvvür yaradır.



Vətən müharibəsindən ötən müddətdə Qarabağa təşkil edilən səfərlərin xarici iştirakçıları işğaldan azad olunan ərazilərdə erməni faşizmi tərəfindən bir kəndin, bir şəhərin belə salamat saxlanılmadığının, maddi-mədəni abidələrimizin yerlə bir edildiyinin, təbii sərvətlərimizin talandığının şahidi oldular. Əcnəbi qonaqlar, eyni zamanda, qəsbkarın bu torpaqları başdan-başa minalayaraq "barıt çəlləyinə" çevirməsini də gördülər.

Prezident İlham Əliyev xarici ölkələrə səfərləri zamanı çıxışlarında, jurnalistlərə müsahibələrində 30 illik işğal ərzində Qarabağda Azərbaycanın bütün mədəniyyəti, tarixi və dini irsinin məhv edildiyini, çoxsayda dinc sakinlərimizin qətlə yetirildiyini, indi üzə çıxan kütləvi məzarlıqların isə erməni faşizminin dəhşətli mənzərəsinin göstəricisi olduğunu vurğulayıb. Ölkə rəhbəri fevralın son günlərində Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində TASS agentliyində bu ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşü zamanı Livanın ərazisinə bərabər Qarabağda ermənilər tərəfindən barbarlıq, vandalizm aktları törədildiyini, yaşayış sahələrinin əvvəlki görkəmindən heç bir əsər-əlamət qalmadığını bildirib. Dövlətimizin başçısı 30-40 min insan yaşayan Ağdam şəhərinin yerində bu gün xarabalıqdan başqa heç nə qalmadığını, evlərin daşlarının daşınaraq satıldığını, məzarlıqlarda başdaşılarının sındırıldığını, qəbirlərin təhqir olunduğunu, bir sözlə, misli görünməyən, ağlasığmayan miqyasda vandallıq törədildiyini diqqətə çatdırıb. Ölkə rəhbərinin vurğuladığı kimi, təəssüf ki, bütün bunlar beynəlxalq ictimaiyyətdən gizlədilib. Əfsuslar olsun ki, işğal altındakı ərazilərə dəfələrlə səfər edən ATƏT-in Minsk qrupu bu dəhşətli vəziyyəti görməməyi üstün tutub. Amma Vətən müharibəsindən sonra beynəlxalq aləm, nüfuzlu təşkilatlar, dünya dövlətləri, o cümlədən, Avropa Parlamenti erməni faşizminin dəhşətlərindən xəbərdar olub. Təəssüf ki, bu dəfə də bu dəhşətlər susqunluqla qarşılanıb.

Burada bir məqamı da xatırladaq. Prezident İlham Əliyev işğaldan azad edilən ərazilərimizə səfərləri zamanı çıxışlarının birində bildirib ki, zaman dəyişsə də, erməni faşizmi dəyişmir: "Heç kim bunu unutmamalıdır. İndi onların bəzi hallarda göndərdikləri yaltaqlıqla dolu sözlərinə inanmaq olmaz. Buna inanmaq istəyən, bax, bu mənzərəni göz önünə gətirsin, dağıdılmış Ağdamı, Füzulini, Şuşanı, Kəlbəcəri, Laçını, Zəngilanı, Qubadlını, Cəbrayılı göz önünə gətirsin. Erməni vəhşilərin əməlləri göz qabağındadır. Amma onların hamiləri bunu görmək istəmirlər. Amma görməlidirlər və görəcəklər. Onların gözünə soxacağıq. Biz indi kitablar da dərc edirik, göstəriş vermişəm, təqdimatlar da olacaq. Xarici ölkələrdə sərgilər olacaq. Biz göstərəcəyik. Bunu görmək istəməyən məcbur olub görəcək. Görəcək ki, erməni faşizmi, erməni vəhşiliyi nədir".

Dövlətimizin başçısı hər zaman qeyd edib ki, erməni mifologiyasının biri də o idi ki, guya ermənilər qədim tarixə, mədəniyyətə malikdirlər və burada "vəhşi müsəlmanlar" arasında qalıblar. Guya ki, Ermənistan Qafqazda mədəniyyət ocağıdır, beşiyidir, yaxud da son məntəqəsidir. Onların mədəniyyəti, bax, budur. Bax, bu dağıdılan binalardır, qazılan qəbirlərdir, təhqir edilən məscidlərdir.

Uzun illər davam edən işğal zamanı Azərbaycan xalqına məxsus daşınmaz tarix və mədəniyyət abidələri yerlə bir edilib, mənimsənilib, tarixi-mədəni təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq vandalizmə məruz qalıb. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri İslam dini abidələri – məscidlər, türbələr və digər inanc yerləri olub. Düşmən məscidlərin içərisində ev heyvanları saxlamaqla azərbaycanlılara qarşı öz nifrətlərini ortaya qoyub. İşğal olunan ərazilərdə yerləşən mədəni irsə, o cümlədən xüsusi əhəmiyyətə malik unikal abidələrə bu cür barbarcasına münasibət dünya irsinə qarşı yönəlmiş təhdid kimi dəyərləndirilməlidir.

Qarabağda bütün dağıntılar məqsədli şəkildə edilib. Belə ki, erməni vandalları tərəfindən Ermənistan ərazisindəki tarixi torpaqlarımızda, Qarabağda və ətraf rayonlarda azərbaycanlılara aid tarixi miraslar viran qoyulmaqla azərbaycanlıların bu ərazilərdəki mədəni kimliyinin itirilməsi məqsədi güdülüb.

Bütün bunlar, eyni zamanda, onu göstərir ki, Ermənistan xristianlığın dəyərlərini də qorumur. Belə ki, xristian dini dəyərlərində başqalarının məbədlərinə, müqəddəs məkanlarına qarşı vandalizm heç vaxt müsbət qarşılanmır. Ümumiyyətlə, düşmənin müqəddəs yerlərə qarşı bu cür çirkin hərəkətləri nə dinə, nə də insanlığa sığır.

Ermənilərin bu vəhşi əməllərinə baxmayaraq, Azərbaycan heç zaman din davası gerçəkləşdirməyib. Ölkəmizin ərazisində bütün dinlərə məxsus olan abidələr dövlət səviyyəsində qorunub, məscidlərlə yanaşı, sineqoqlar tikilib, yeni kilsələr inşa edilib. Hətta Bakı şəhərinin mərkəzində erməni kilsəsi dövlət tərəfindən qorunan abidələr siyahısına salınıb. Düşmən isə, əksinə, İslam mədəniyyətinin incisi olan məbədləri dağıdıb, regionda dini müharibə məsələsini qızışdırmağa və bu münaqişəni xristian-müsəlman qarşıdırması kimi təqdim etməyə cəhd göstərib.

Bu gün işğaldan azad olunmuş ərazilərin vəziyyəti erməni vandalizmin sübutudur. Düşməndən təmizlənən şəhər və kəndlər tamamilə dağıdılmış vəziyyətdədir. Həmin dağıntılar Birinci Qarabağ müharibəsindən sonrakı dönəmdə törədilib. Əvvəlcə evlərin və sosial obyektlərin tikinti materialları, dam örtükləri və pəncərələri oğurlanıb, daha sonra isə işğal altındakı torpaqlarda Azərbaycanın mədəni irsi dağıdılıb, təbii sərvətləri talan olunub.

Ermənistan Azərbaycan torpaqlarını ələ keçirməklə, şəhər və kəndlərimizi xaraba qoymaqla, maddi-mədəni, təbii sərvətlərimizi talan etməklə heç nəyə nail ola bilmədi. Dövlətimizin başçısının vurğuladığı kimi, rəsmi İrəvanın işğalçı siyasəti Ermənistanı tənəzzülə apardı.

**V.BAYRAMOV, "Xalq qəzeti"**